# Həyat həqiqətlərinin ədəbi-bədii ifadəsi

## Yazıçı-publisist Əlisəfa Azayev haqqında söz

**Yazıçılıqda yaradıcılığın üç mühüm şərti var: birincisi ürək, yəni yazı ürəkdən gəlməlidir; ikincisi istedad, üçüncüsü isə zəhmətdir. Mən bu sıraya peşəkarlığı da əlavə edərdim. Mən bu şərtləri bir, iki, üç deyə sıraladım. Əslində isə bunların hamısı birincidir, hamısı əsasdır. Bu şərtlər sırasında həyat məktəbi keçməyin də özünün çox mühüm, mən deyərdim ki, həlledici əhəmiyyəti vardır. Burada söhbət yazıçı-publisist, hüquqşünas Əlisəfa Azayevdən, daha doğrusu onun çox məhsuldarlıqla yazıb ərsəyə gətirdiyi, oxucuların ixtiyarına verdiyi çoxsaylı kitablardan gedir. Bu bir həqiqətdir ki, həyatdan ədəbiyyata gələn yazıçıların əsərləri də daha məzmunlu, daha əhatəli və təsirli olur.**

Əlisəfa Azayev özünün ilk bədii yazı nümunələri ilə hələ pedaqoji məktəbi bitirib sinif müəllimi kimi əmək fəaliyyətinə başladığı ilk vaxtlarda diqqəti cəlb etmişdi. Bu mərhum yazıçı Əlfi Qasımovun gənc Əlisəfanın ədəbi yazılarına göstərdiyi maraqla bağlı idi.

Yazıçı Əlfi Qasımov 1974-cü ildə "Azərbaycan gəncləri" qəzetində Kürdəmirin ucqar bir kəndində müəllim işləyən Əlisəfa Azayev haqqında "Uğur olsun" sərlövhəli bir yazı dərc etdirmişdi. Bu yaradıcılığa kövrək addımlar atan Əlisəfa üçün əsl diqqət və qayğı idi. Tanınmış istedadlı bir yazıçı tərəfindən göstərilən bu etimad Əlisəfanı ruhlandırmaqla onun yaradıcılıq yoluna bir aydınlıq bəxş elədi. Qayğıkeşliklə edilən bu duadan sonra Əlisəfanın istedadlı qələmindən çıxan irili-xırdalı hekayələr respublikanın müxtəlif qəzet və jurnallarında dərc olunmağa başladı. Ədəbi yaradıcılığa ilk addımlar atdığı o vaxtlarda Əlisəfa Azayev Kürdəmir rayonunun Ərəbxana kənd orta məktəbində müəllim işləyirdi. Qiyabi yolla Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub, hüquqşünalıq ixtisasına yiyələndi. Belə bir ixtisasa yiyələnməsi və bu sahədə çalışması onun ədəbi-bədii yaradıcılığına yeni-yeni mövzular verdi. İstər-istəməz gənc bir yazıçı kimi detektiv mövzulara meylləndi. Bu janr Əlisəfa Azayevin yaradıcılığından qırmızı bir xətt kimi keçir.



İlk kitablarını ("Yeddi il sonra") 37 il bundan əvvəl oxuculara təqdim edən Əlisəfa Azayev ta o vaxtlardan bu günə kimi öz ədəbi yaradıcılığına, xüsusi maraq göstərdiyi detektiv janrına bu günə kimi sadiq qalmışdır. Keçən bu müddət Əlisəfa müəllim tərəfindən 25-dən çox kitabın uğurla ərsəyə gətirilməsi deməkdir.

"Yeddi il sonra" kitabı ilə ədəbiyyata gələn Əlisəfa Azayev "Çin qızılgülü", "Gecə yarı sui-qəsd", "Sirli qətl", "Əsgər anası", "Qürbət ellərdə", "Prokuror qızı", "Qatarda hadisə", "Qanlı gündəlik", "Günahsız məhbus", "Gizli əməliyyat", "Kapitanın sərgüzəştləri" və sair kitabları ilə oxucuların dərin marağına və rəğbətinə səbəb olmuşdur.

Əlisəfa Azayev öz yaradıcılığında Qarabağ mövzusuna da geniş yer vermişdir ki, yuxarıda biz onlardan bir neçəsinin adını çəkdik.

Əisəfa Azayevin yaradıcılıq uğurlarını sadalayarkən bunların fövqündə duran bir məqamı yada salmaq yerinə düşərdi.

Ədəbiyyatşünaslıqda özünəməxsus yeri olmuş tənqidçi professor Qulu Xəlilov 1984-cü ildə Əlisəfa müəllimin hekayələri haqqında öz fikirlərini belə ifadə etmişdir: "Əlisəfa Azayev həyatdan ədəbiyyata gələn müəlliflərdəndir. Onun kitablarını müntəzəm çap etmək gərəkdir".

Məntiqi ardıcıllığa söykənən bu fikir Əlisəfa Azayevin yaradıcılıq uğurlarında özünü çox parlaq şəkildə doğrultdu.

Bu və digər faktlar barədə yazıçı Əlisəfa Azayevin Kürdəmir rayonunda oxucularla keçirilmiş görüşündə ətraflı bəhs olunmuşdur.

Kürdəmir rayon İcra Hakimiyyətinin dəstəyi, AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional şöbəsinin təşkilatçılığı ilə keçirilən görüşü muzeyin Aran regional şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı açaraq yazıçı Əlisəfa Azayevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, əsasən detektiv mövzularda yazan Əlisəfa Azayevin indiyədək 26 adda kitabı 100 000-dən artıq tirajla çap olunmuşdur.

Görüşdə iştirak edən qonaqlardan yazıçı-publisistlər Mustafa Çəmənli, Flora Xəlilzadə, şair Kərəm Kürqıraxlı çıxış edərək bir ziyalı və yazıçı kimi Əlisəfa Azayevə xas olan keyfiyyətlərdən söz açmışlar.

Yazıçı ilə keçirilən görüşlərdə oxuculardan Mehriban Məmmədova, Tofiq Abdullayev, Ağa Zeynalov, Abdüləziz Xanəhmədoğlu, İradə Mahmudova Əlisəfa Azayevin əsərləri haqqında maraqlı fikirlər söyləmişlər.

AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynov, xalq yazıçısı Çingiz Abdullayevin Əlisəfa Azayevin yaradıcılığı haqqında söylədikləri dəyərli fikirləri əks etdirən video kadrlar nümayiş etdirilmişdir.

Məktəblilərin yazıçının əsərləri əsasında hazırladıqları kompazisiyalar və muğam ifaçıları Reyhan Rəcəbova və Aysel Soltanovanın çıxışları görüşü daha maraqlı etmişdir.

Əlisəfa Azayevin portretini çəkmiş gənc rəssam Fərman Qasımov həmin portreti görüş iştirakçılarının alqışları altında yazıçıya təqdiş etmişdir.

Kürdəmir rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli rayon rahbərliyi adından yazıçı Əlisəfa Azayevi təbrik etmiş, ona yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar arzulamışdır.

Sonda yazıçı Əlisəfa Azayev oxucuların suallarına cavab verərək bu maraqlı görüş üçün minnətdarlığını bildirmişdir.

**Tofiq Abdullayev**